Bu günlərdə yeni istifadəyə verilmiş Horovlu kəndində Prezidentin səlahiyyətli nümayəndəsi Vahid Hacıyevlə Cəbrayıl rayon Ağsaqqallar şurasının nümayəndələrinin iftar süfrəsi arxasında görüşü oldu...

Görüşdən əvvəl ağsaqqallar kəndin istirahət parki və yüksək memarlıq səriştəsi, incə estetik zövqlə bərpa olunmuş Orta kəhrizi ziyarət etdilər...

Parkda konservasiya olunmuş xarabalıqlar da maraq doğurub...

Əbədi yaşarı abidə kimi qorunacaq xarabalıqlar Qarabağın işğal tarixi haqqında gələcək nəsillərə dövrümüzün daşlaşmış məktubudur...

Möhtəşəm Horovlu kəndinin küçələrində gəzinti zamanı hər kəs heyranlığını gizlətmirdi...

Prezidentin səlahiyyətli nümayəndəsi Vahid Hacıyev Cəbrayıl ağsaqqallarını istirahət mərkəzində qarşıladı...

O, Cəbrayıl rayonunun bərpası ilə bağlı geniş və əhatəli məlumat verdi...

Yeni iş yerlərinin açılması planları xüsusi maraq doğurdu...

# Horovluda görüş



Cəbrayil rayon ağsaqqallar şurasının sədri Vaqif Məhərrəmov ağsaqqlların təşəbbüsü ilə Cəbrayıl şəhərində görülən işlərə dair məlumat verdi.Qeyd etdi ki rayon ağsaqqalları Prezidentin siyasi xəttini hər zaman olduğu kimi bundan sonra da yüksək coşqu ilə müdafiə edəcəkdir...

"Biz hər zaman dövlətimizin yanındayıq.", deyə o sözünü yekunlaşdırıb.

Ağsaqqalları maraqlandıran suallara Vahid Hacıyev və mütəxəssislər ətraflı cavab veriblər

Şair publisist Əli Rza Xələfli Cəbrayıl Ata məqbərəsinin bərpası, Divlər sarayının arxeoloji abidə kimi tədqiqinin vacibliyini qeyd etdi. Asteroid yatağının təbiət abidəsi kimi öyrənilməsi də turistlər üçün maraqlı olacağını bildirdi.

Vaqif Məhərrəmov yeni açılmış Təfəkkür intellektual mərkəzi haqda məlumat da verdi.

İqtisadçı Əziz Əzizov aqrar sahənin inkişaf etdirilməsi üçün maraqlı təkliflərlə çıxış etdi.

İftar süfrəsi zamanı söhbət maraqlı ictimai məzmunu ilə yadda qalan oldu.

Rayon Ağsaqqallar şurası nümayəndələrinin təklifləri

5-7 ci əsrlərə aid Cəbrayıl Ata məqbərəsinin tədqiqi və bərpası.

Divlər sarayı... İlk insan məskəninin tədqiqi...

Kəhrizlərin bərpası... Xüsusilə Süleymanlı və Quycaq kəndlərindəki bol sulu kəhrizlər bərpa edilib həyata qaytarılmalıdır.

Asteroid yatağı təbiət abidəsi kimi öyrənilməli, turustlərin yol xəritəsinə daxil edilməlidir.

Ağsaqqallar şurasının davamlı və səmərəli fəaliyyəti üçün 35-40 kv m. lik mənzil ofis ayrılması da xahiş olundu

Cəbrayıl Rayon Ağsaqqallar Şurasının idarə Heyəti.

*Əli Rza XƏLƏFLİ*